## Dövlət Statistika Komitəsinin əməkdaşları təltif olundu



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 iyun 2015-ci ildə imzaladığı sərəncama əsasən, Statistika sahəsində göstərdiyi xidmətlərinə görə, Dövlət Statistika Komitəsinin bir qrup əməkdaşı - Aparatın Məlumatların yayılması şöbəsinin müdiri Rafael Suleymanov, Əmək statistikası şöbəsi müdirinin müavini Nemət Xuduzadə, Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinin Ekologiya, meşə təsərrüfatı və balıqçılıq statistikası sektorunun müdiri Rəna Lazımova, Bərdə Rayon Statistika İdarəsinin rəisi Əlövsət Məmmədov və Tovuz Rayon Statistika İdarəsinin rəis müavini Akif Zeynalov "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşlar. İyulun 31-də Statistika Komitəsində mükafatların təqdimetmə mərasimi oldu. Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsi sədrinin birinci müavini Həmid Bağırov Prezident İlham Əliyevin statistika sahəsinə daim böyük diqqət və qayğı göstərdiyini vurğuladı. O qeyd etdi ki, əməkdaşlarımız Dövlət Qulluqçularının peşə bayramı ilə əlaqədar ilk dəfə olaraq Komitənin təqdimatı əsasında təltif olunmuşlar. Cənab Bağırov təltif olunmuş şəxsləri təbrik etdi və gələcək fəaliyyətlərində onlara uğurlar arzuladı. Sonra mükafatlar sahiblərinə təqdim olundu. Təltif olunan əməkdaşlar belə mötəbər mükafata layiq görüldüklərinə görə dövlət başçısına öz minnətdarlıqlarını bildirdilər.









